# Tarixi ədalətin bərpasında elmi yanaşma

*Qərbi Azərbaycanın tarixi, mədəniyyəti və orada yaşamış azərbaycanlıların taleyi milli kimliyimizin və tarixi yaddaşımızın ayrılmaz hissəsidir. Regionun tarixinin öyrənilməsi, mədəni irsinin qorunması və etnoqrafik dəyərlərinin sistemli şəkildə təhlili tarixçilərin, elmi ictimaiyyətin əsas araşdırma sahələrindən biridir. Uzun illər bu mövzuya kifayət qədər diqqət ayrılmasa da, son dövrlərdə dövlət bu sahədə yeni tədqiqat istiqamətlərinin formalaşmasını stimullaşdırır.*

Prezident İlham Əliyev 24 dekabr 2022-ci il tarixdə Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olmuş, bir qrup ziyalı ilə görüşündə vurğulamışdır ki, Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var.

Qərbi Azərbaycanla bağlı materialları toplayan müxtəlif arxivlərin sistemli təhlili faktları elmi dəlillərlə təqdim etməyə imkan verir. Tədqiqatçılar sənədlərin müqayisəli təhlilini apararaq, statistikaya əsaslanmaqla yeni elmi nəticələr əldə edirlər. Qərbi Azərbaycan mövzusunun beynəlxalq səviyyədə daha çox araşdırılması üçün dünyanın elm adamları ilə elmi əməkdaşlıq, eyni zamanda beynəlxalq konfranslar, simpoziumlar və forumların keçirilməsi, xarici ekspertlərin bu barədə rəylərinin təşkili günümüzün reallığıdır. Tədqiqat nəticələrinin ixtisaslaşdırılmış elmi jurnallarda dərcini, müxtəlif dillərdə monoqrafiyaların hazırlanmasını və yayımını, xarici universitetlərdə Qərbi Azərbaycanla bağlı mövzuların tədqiq edilməsini xüsusi qeyd edə bilərik. Beynəlxalq təcrübə də göstərir ki, tarixi ədalətin bərpası və etnik-mədəni irsin qorunması üçün sistemli elmi yanaşmalar böyük rol oynayır. Məsələn, Holokostun araşdırılması və Yad Vaşem İnstitutunun İsraildə apardığı işlər bu istiqamətdə ən yaxşı nümunələrdəndir.

Buna bənzər bir proses Bosniya və Herseqovinada Srebrenitsa qətliamının tanıdılması zamanı həyata keçirilib.




Qərbi Azərbaycan məsələsinə bənzər digər bir nümunə Krım tatarlarının deportasiyası və onların geri qayıdışı ilə bağlı aparılan elmi araşdırmalardır. Krım tatarlarının 1944-cü ildə deportasiyası və onların 1990-cı illərdə öz torpaqlarına dönüşü tarixi ədalətin bərpasının beynəlxalq təcrübədə necə həyata keçirildiyini göstərən mühüm nümunələrdəndir. Bu prosesdə həm hüquqi, həm tarixi, həm də mədəni aspektlər nəzərə alınıb, elmi araşdırmalar aparılıb.

Deportasiya ilə bağlı istənilən nəticənin əldə olunmasında bədii ədəbiyyat, teatr və kino da mühüm vasitələrdir. Məsələn, XX əsrdə müxtəlif xalqların tarixi faciələri bədii əsərlərdə və filmlərdə əks olunmuşdur ki, bu da tarixi məsələlərin geniş kütlələrə çatdırılmasında mühüm rol oynamışdır. Qərbi Azərbaycan mövzusunun elmi baxımdan sistemli şəkildə araşdırılması, beynəlxalq aləmə təqdim olunması və informasiya texnologiyaları vasitəsilə bir neçə dildə geniş auditoriyalara yayılması tariximizin və ərazilərimizin tanınmasına imkan yaradır.

Beynəlxalq təcrübə göstərir ki, bu cür proseslərdə elmi yanaşmanın, tarixi materialların müasir üsullarla tədqiqinin və beynəlxalq elmi əməkdaşlığın rolu əvəzsizdir.

**Fərid VƏLİYEV,**
**riyaziyyat üzrə fəlsəfə doktoru.**

Respublika .- 2025.- 22 fevral (№ 40).- S.6.